# ƏLİYEV YUSİF ƏLİYUSİF OĞLU



Yusif Əliyev 1969-cu il dekabrın 2-də Qaradağ rayonunun Qobustan qəsəbəsində anadan olmuşdur. Qəsəbədəki 223 nömrəli orta məktəbi bitirmişdir. 1988 – 90-cı illərdə hərbi xidmətdə olmuşdur. 1990-cı ilin avqust ayından daxili işlər orqanlarına qəbul olmuş, Bakı şəhər Baş Daxili İşlər İdarəsinin Post-Patrul Alayında 3-cü rotada milis nəfəri kimi xidmətə başlamışdır. Y.Əliyev daxili işlər orqanlarında fəaliyyətə başladığı vaxtdan verilən tapşırıqları vaxtında icra edən əməkdaş kimi fərqlənmiş, bir neçə dəfə respublikamızın "qaynar nöqtələrinə” ezam olunmuşdur. Döyüş zonalarına son səfəri 1991-ci il sentyabr ayının 5-i olmuşdur. 1991-ci il sentyabrın 14-də düşmən Buzluq kəndinə hücuma keçir. Ölüm-dirim savaşına girən dəstədən xəbər gəlir ki, əsgərlərin sursatı tükənib. Yusif güllə yağışı altında Buzluğa sursat çatdırmağa müvəffəq olsa da, özü qəhrəmancasına həlak olur. Ailəli idi. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə polis nəfəri, sıravi Əliyev Yusif Əliyusif oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Ağsu rayonunun Rəhimli kəndində dəfn edilib. Qobustan qəsəbəsindəki 195 saylı orta məktəb 1992-ci ildən Qəhrəmanın adını daşıyır. Məktəbdə büstü qoyulub.